**AZƏRBAYCAN RESPUBLİKASI**
**MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**
**F. KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**
**ELMİ-METODİKA ŞÖBƏSİ**



**Filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun 65 illik yubileyi münasibətilə**

# Böyük arzuya gedən yol

**(metodiki vəsait)**

**B A K I- 2015**

**Redaktor:** Şəhla Qəmbərova-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru

**Tərtibçi:** Könül Səmədzadə-F.Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi metodika şöbəsinin baş kitabxanaçısı

**Korrektor:** Ruhiyyə Məmmədli-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi-metodika şöbəsinin müdiri

## Tərtibcidən

Bəli, bu gün biz uşaq ədəbiyyatından danışacağıq. Uşaq ədəbiyyatı nəinki özündən hündür gülə, günəşə, aya, gələcəyə boylanan bəşər övladının ədəbiyyatıdır. Ancaq təəssüf ki, çox zaman uşaq ədəbiyyatına barmaqarası yanaşıblar, onu uşaq-muşaq ədəbiyyatı hesab edənlər də tapılıb. Ancaq günəşi qara buludlarla örtmək mümkün olmadığı kimi, uşaq ədəbiyyatını da danmaq, inkar etmək, onu ikinci növ ədəbiyyat hesab etmək düzgün deyil. Uşaq ədəbiyyatı əsərləri xeyirxah, mərd və cəsur qəhrəmanları, maraqlı sujet və kompozisiyası, anlaşıqlı, sadə və aydın bədii ifadə vasitələri, səlis dili ilə seçilir. Uşaq ədəbiyyatı folklor qaynaqlarından bəhrələnir. Uşaq ədəbiyyatı ümumi ədəbiyyatın ayrılmaz tərkib hissəsidir.

Bəli, elə bu gün ədəbiyyatımızda uşaq yanrında yazıb-yaradan, öz səlist dili ilə uşaqların qəlbinə yol tapan, uşaq ədəbiyyatının görkəmli nümayəndələrindən biri şair, ədəbiyyatşünas Rafiq Yusifoğlunun həyat və yaradıcılığı ilə tanış olacağıq.

## BÖLMƏ I

# Həyat və yaradıcılığı:

**"Mən bütün ömrümü, həyatımı şeirə, sənətə, ədəbiyyata, onun tədqiqinə və təbliğinə həsr etmişəm. Hərdən mənə elə gəlir ki, ədəbiyyat mənim Leylimdi, mən isə onun Məcnunu"**.

**Rafiq Yusifoğlu**

Həyat burulğanında insanlar aşa-aşa , xoşbəxt anların şirinliyini dada-dada ideal kamillik zirvəsinə yaxınlaşırlar. İndi Rafiq Yusifoğlunun da əksər qayğılarının geridə qaldığı, ideal kamillik zirvəsini şərəflə fəth etdiyi bir vaxtdır...

65 il bundan əvvəl dünyaya bir oğul gəldi-Rafiq Əliyev. İllər keçdi, ədəbiyyatda bir ad göründü-Rafiq Yusifoğlu...Filologiya elmləri doktoru, professor, əməkdar mədəniyyət işçisi, 65 illik həyatini şərəf və ləyaqətlə yaşayan, özündən sonra ədəbi mühit və tarixində silinməz iz qoyan Rafiq Yusifoğlu...Saf insanlara məxsus xəfif təbəssüm, dərin və yüksək intelektual düşüncə sahibinə xas olan iti baxişların sahibi Rafiq Yusifoğlu həyatının çox böyük qismini ədəbiyyata həsr edib...Onun bir çox kitabları çap olunub ki, bu kitablar Rafiq Yusifoğlunun dönüb geriyə baxanda gözəl ədəbiyyatşünas, istedadli şair, sevən və sevilən şair ürəyi ilə bərabər 65 ilə gətirdikləridir.

Təsadüfi deyil ki, Rafiq Yusifoğlunun adı çəkiləndə uşaq ədəbiyyatı yada düşür. Onun balacalara həsr etdiyi şeirlərinin qəhrəmanları nəinki uşaqlar, təbiət, heyvanlar, bitkilər, cansız əşyalar belə desək, istənilən uşağın sevə biləcəyi bütün obyektlərdir. R.Yusifoğlu qəhrəmanlarını obrazlı, orijinal, biçimli səviyyədə uşaqlara təqdim edir.

Qarasına danışdım,
Qış səsimi eşitdi.
Qarıni ayaqladım,
O da məni üşütdü...

Onun uşaq şeirlərinin gözəl cəhətlərindən biri təkcə onların zövqünü oxşaması, diləyatımlı olması deyil, həm də əsas məqsədi uşaqlara nəyi isə öyrətmək, hər hansı məlumatı maraqlı və obrazlı şəkildə balaca oxucularına çatdırmağa nail olmasıdır. Məsələn, götürək onun “Yollar” adlı şeir kitabını. Burada şair bədii və maraqlı dillə işarələri danışdırmaqla balacalara yol hərəkəti qaydalarını öyrədir. Onun uşaqlar üçün yazıb çap etdirdiyi bir çox şeirləri nəzər diqqətimizi daha çox cəlb edir. “Payızın göz yaşı” şeiri də belə nümunələrdəndir:

Soyuyubdur havalar
Boş qalıbdır yuvalar.
Yarpaqlar soluxsuyub
Ağaclar doluxsunub.
Dəyişib libasını
Gör neçə yaşıl budaq,
Ağlayacaq ağaclar,
Göz yaşı yarpaq-yarpaq
Ələnəcək torpağa,
Yarpağa bax, yarpağa.
Süpürəcək onları
Bir süpürgəçi xala.
Dolduracaq xarala.
Sonra da od vuracaq
Ömrün ötən günləri
Düşəcəkdir yadına
Qızınacaq ağaclar,
Qızınacaq budaqlar,
Qızınacaq böyüklər
Qızınacaq uşaqlar
Göz yaşının oduna...

Göründüyü kimi, gözəl şairimiz adi hadisəyə qeyri-adi məna verərək onu poetik süzgəcdən keçirib. "Qizinacaq budaqlar göz yaşının oduna" deyən şair xəzəl olmuş yarpaqları ağacın göz yaşlarına bənzətmiş, "göz yaşının oduna qızınmaq" ifadəsi ilə həm də şeirə fəlsəfi ovqat bəxş etmişdir. Rafiq Yusifoğlunun bədii sözünün gücü bu sözün həm də səmimiliyində, həyatiliyində, onun duyumlu, gözəl, təmənnasız olmasındadır.

## BÖLMƏ II

Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor, ədəbiyyatşünas Rafiq Yusifoğlunun 65 illik yubileyidir. Gəlin əvvəlcə Rafiq Yusifoğlunun həyat və yaradıcılığı ilə tanış olaq. "Qızıl qələm", "İlin ən yaxşı kitabı", "Araz", "Vətən" və s. ali ədəbi mükafatlarının laureatı Rafiq Yusifoğlu... Rafiq Yusifoğlu 1950-ci il yanvar ayının 2-də Qubadlı rayonunun Çardaxlı kəndində müəllim ailəsində anadan olmuşdur. Burada səkkizillik məktəbi, Qubadlı qəsəbə orta məktəbində onillik məktəbi bitirmişdir (1966). Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində təhsilini davam etdirmişdir (1966-

1970). Bir müddət Sumqayıt şəhərində müəllim işləyən şair Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olmuşdur. “Azərbaycan Sovet poemasının inkişaf problemləri” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Ali məktəbi müvəffəqiyyətlə bitirən Rafiq Yusifoğlu öz taleyini gənclik şəhəri Sumqayitla bağladı. Şəhərin ən bacarıqlı müəllimlərindən biri kimi şöhrət qazanan Rafiq Yusifoğlu elmi və bədii yaradıcılığını inamla davam etdirdi. Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olub, 1982-ci ildə oranı əla qiymətlərlə bitirdi. 1984-cü ildə görkəmli ədəbiyyatşünaslardan Yəhya Seyidov və Qasım Qasımzadənin rəhbərliyi ilə “Azərbaycan poemasının inkişaf problemləri” mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi aldı. 1985-ci ildən 1992-ci ilədək “Göyərçin” jurnalında söbə müdiri, 1992-ci ildən 1996-cı ilədək məsul katib, 1996-1997-ci illərdə Azərbaycan Dövlət Televiziyasının “Xəbərlər” baş redaksiyasında “Elm, mədəniyyət, incəsənət” şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1997-ci ildən “Göyərçin” jurnalının baş redaktorudur. Şairin uşaq ədəbiyyatı sahəsində xüsusi fəaliyyəti vardır. Rafiq Yusifoğlu 2007-ci ildə “XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri” mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri doktoru adını almışdır. Hazırda Sumqayıt Dövlət Universitetinin “Azərbaycan ədəbiyyatı” kafedrasının professorudur. Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisidir.
O, gənc tənqidçilərin Moskvada keçirilən birinci (1982), ikinci (1985) və üçüncü (1988) Ümumittifaq seminarlarının, Qazaxıstanda keçirilən Beynəlxalq Uşaq ədəbiyyatı günlərinin (1989) iştirakçısı, 1985-ci ildə Moskvada Ali Komsomol Məktəbinin bir aylıq jurnalistika kursunun müdavimi olmuşdur.
Ədəbi fəaliyyətə hələ orta məktəbdə oxuyarkən başlamış, 1966-cı ildən şeirləri, məqalələri ilə mətbuatda çıxış etməyə başlamışdır. Son illər bədii tərcümə ilə ciddi məşğul olur. F.Q.Lorkanın, Corc Bayronun, Peter Şyuttun, Hans Yurgen Hayzenin, Ulla Hanın, Roza Auslenderin və başqalarının şeirlərini, dünya uşaq ədəbiyyatının gözəl nümunələrini dilimizə tərcümə etmişdir. Əsərləri bir sıra dillərə tərcümə edilib, dərsliklərə düşüb. Çoxlu mahnı mətnlərinin, elmi-publisistik məqalələrin müəllifidir. Əsərləri əsasında “Qəm karvanı”, “Bütün Azərbaycan əsgər olmalı” televiziya tamaşaları çəkilib, dəfələrlə nümayiş etdirilmişdir. Rafiq Yusifoğlu yaradıcılığa lap erkən yaşlarından başlamışdır. Onun şeirlərinin böyük bir qismi doğma torpağımıza, onun gözəlliklərinin tərənnümünə həsr edilib. Şair oxucularını gah tarixi keçmişimizə, gah təbiətin qoynuna, gah da sehirli uşaq dünyasına səyahətə aparır. Onun Yanardağa, Qobustana, Gəmiqayaya, Qəbələyə, Qubadlıya, Örənqalaya, Şuşaya, Xocamsaxlıya... həsr etdiyi şeirlər bu baxımdan maraq doğurur. R.Yusifoğlu kənd həyatı ilə, təbiətlə yaxından ünsiyyətdə olan, ona öz

gözü ilə baxmağı, hər hansı təbiət hadisələrini poetik dillə mənalandırmağı bacaran şairdir. Onun şeirləri bir növ Azərbaycan torpağının poetik xəritəsinə bənzəyir.

Rafiq Yusifoğlunun şeirlərinin mövzusu rəngarəngdir. Onun vətən torpağının tərənnümünə, onun otuna, çiçəyinə, dağına, dərəsinə, ətirli yamaclarına, göllərinə, çaylarına, çeşmələrinə, yurdumuzun tarixi keçmişinə, sehrli uşaq dünyasına həsr edilmiş şeirləri öz orjinallığı, obrazlılığı, lakonizmi ilə diqqətimizi cəlb edir.

R.Yusifoğlu "Yurdum-yuvam", "Ətirli düymələr", "Ocaq yeri", "Aylı çığır", "Qəm karvanı", "Həsrət köçü", "Şirin yağış", "Azərbaycan poeması, axtarışlar, perspektivlər", "Bahar qatarı", "Xatirə kəcavəsi", "Böyük arzuya gedən yol", "Təzə sevdalara doğru", "Çiçək yağışı", "Ədəbiyyatşünaslığın əsasları" və s. kitabların müəllifi, "İlin ən yaşxı kitabı", "Vətən", "Qızıl qələm", "Araz", "Tofiq Mahmud" və s. mükafatların laureatıdır. Rafiq Yusifoğlunun uşaq ədəbiyyatındakı fəaliyyəti xüsusilə təqdirə layiqdir. Onun bu sahədə sevilib-seçilən, əsərləri dərsliklərə salınıb və başqa dillərə tərcümə olunub.

## BÖLMƏ III

## YUBİLEY TƏDBİRLƏRİNİN KEÇİRİLMƏSİ:

Uşaq ədəbiyyatı deyəndə şair Rafiq Yusifoğli yada düşür. Bu il uşaqlar üçün yazıb-yaradan, həmişə uşaq aləmini həssaslıqla müşahidə edən şair, ədəbiyyatşünas Rafiq Yusifoğlunun 65 illik yubileyidir. Bu münasibətlə respublikamızın bir çox təhsil müəssələrində kitabxanalarda, lisey və gimnaziyalarda, məktəb və bağçalarda bir sözlə tədris ocaqlarında Rafiq Yusifoğlunun 65 illik yubileyinin keçirilməsi nəzərdə tutulmuşdur. F. Köçərli adına Respublika Uşaq Kitabxanasında yubiley tədbirləri ilə bağlı plan tutulmuşdur. Rafiq Yusifoğlu yaradıcılığını daha yaxindan izləmək üçün kitab sərgisinin keçirilməsi vacibdir. Sərgidə Rafiq Yusifoğlunun kitabları və "Göyərçin" jurnalı ilə yanaşı dövrü mətbuatda çap olunan məqalələrin kartotekası da öz əksini tapmalıdır. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn, "Şeirimin canıdır bu el, bu vətən", "Qəlbində varsa təpər, Alnından günəş təpər", "Uşaqların sevimlisi Rafiq Yusifoğlu", "Uşaqların yaxın dostu", "Rafiq Yusifoğlu-65", "Baharım, sevinc payım qışım , payızım yayım." və s. İndi isə sərginin nümunəsini veririk.

**BAŞLIQ:**

1. **“Rafiq Yusifoğlu-65”**
2. Rafiq Yusifoğlunun portreti.
3. Görkəmli insanların Rafiq Yusifoğlu haqqında söylədikləri sitatlar.
4. Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.
5. Kitablarının nümayişi.
6. Şeir parçası

**SİTATLAR:**

1. Rafiq Yusifoğlu Azərbaycan dilini gözəl bilən şairlərimizdəndir.

Qabil
Xalq şairi

2. Rafiqdən Səhhət ətri gəlir, Şaiq ətri gəlir, Səməd Vurgun ətri gəlir.

İ. Tapdıq
Şair

3. Hər addımda, hər dikəlişində, hər söylənişində Rafiq Yusifoğlunun başının üstündə Füzuli zirvəsinin zəhmi hiss olunur.

M.Aslan
Şair

4. Rafiqin özünün mövzuları var. Bunlar şairin ürəyinə daha yaxın, məhrəm olanlardır. Bir şeirində özünün dediyi kimi o elə fikirləri “torpağa səpir” ki, göyərsin.

Aydın Həsənov
Pedaqoji elmlər namizədi

5. Rafiq Yusifoğluna ən böyük arzum budur ki, o, yaradıcılıq meydanını daha da genişləndirsin. Xalqımızı, xüsusilə gəncliyimizi düşündürən məsələlərə öz münasibətini bidirsin, milli demokratik dirçəlişimizin, suverenliyimizin fəal vətəndaş şair tərənnümçüsü kimi qələm çalsın.

Hikmət Ziya
Şair

7. Rafiq Yusifoğlunun bütün şeirləri, poemaları, mənzum nağılları folklor çeşməsindən su içib. Xalq yaradıcılığına böyük əhəmiyyət verən şairin şeirlərinin bir uğuru da elə burdan doğur.

Zahid Xəlil
Filologiya elmləri doktoru, professor

# KİTABLARİNİN NÜMAYİŞİ







Rafiq Yusifoğlu
QIZILI MƏKTUBLAR


RAFİQ YUSİFOĞLU
UŞAQ ƏDƏBİYYATI
BAKI 2002


RAFİQ YUSİFOĞLU
BÖYÜK ARZUYA GEDƏN YOL


Rafiq Yusifoğlu
Çiçək yağışı

**GÖYƏRÇİN JURNALININ SƏRGİSİ:**



















Rafiq Yusifoğlunun yaradıcılığını yaxından izləmək üçün kitabxanada şeir müsabiqəsinin keçirilməsi nəzərdə tutulmuşdur. Şeir müsabiqəsində Rafiq Yusifoğlunun uşaqlar üçün yazdığı bir çox şeirlərdən istifadə etmək olar. Şeir müsabiqəsi əsasən kiçik və orta yaşlı uşaqlar arasında keçirilə bilər. Məsələn, Dili açılır, Kitablar, Əsl dost necə olar və.s. şeirlərini nümunə üçün veririk.

## Dili açılır

Ürək yamanca sevinir,
İlk baharın gəlməsinə.
Vurulmuşam təbiətin
Hər sözünə, kəlməsinə.

Bahar körpə tumurcuğun,
Yarpağın dilini bilir.
Sinəsində inci yatan
Torpağın dilini bilir.

Danışar dərələr,dağlar,
Danışar düzlər, yamaclar.
Torpağın sözü deyilmi
Otlar, çiçəklər, ağaclar?

Günəş güldükcə bağların
Çiçəyi,gülü açılır.
Nəvaziş görəndə daşın,
Torpağın dili açılır...

## Kitablar

Mənim kitab rəfimə
Gəlin bir az yaxın siz.
Bir-birinə söykənən
Qonşulara baxın siz.

Sözlə dolu olsa da,
Hamısının sinəsi,
Sakitcə əyləşiblər,
Çıxmır birinin səsi.

Durub qaça bilmirlər,

Düşüb gəzə bilmirlər.

Yazıqlar bir – biriylə

Kəlmə kəsə bilmirlər.

Elə ki, götürürsən

Sən onları əlinə,

Dil çatdırmaq olmayır

Heç birinin dilinə.

**Əsl dost necə olar**

Deyin görək uşaqlar,
Əsl dost necə olar?
Vüqar mənim dostumdur,
Sözə başladı İdris.
Dərsimizi bir yerdə
Öyrənirik axı biz!
Qurtarmışdı dəftərim,
Sözə başladı Lalə.
Mağazada tapmadım,
Yolladım İdrisgilə.
Gətirdi xeyli dəftər,
Dedi: Qurbandır sənə!
Dedim: Sağ ol, ay İdris,
Biri lazımdır mənə.
Dost dostundan heç nəyi
Əsirgəməsin gərək.
Əsl dostlar həmişə
Olmalıdır bizim tək.

Vüsal dedi: Müəllim,
Çox raziyam Lalədən.
Onun kimi yaxşı dost
Görməmişəm hələ mən.
Növbətçiydim sinifdə,
Xəstəydi o gün anam.

Gəlib məni çağırdı
Kiçik qardaşım İnam.
Ərk ilə sürürgəni
Əlimdən aldı Lalə.
O gün mənim yerimə
Növbətçi qaldı Lalə.
Arzu dedi: Hərdən bir
Çətin olanda misal,

Mənə kömək eləyir
Bizim bu qoçaq Vüsal.
Sonra sinifqom Gülzar
Dedi gülümsəyərək:
Bağlanıb bir-birinə
Dostluğumuz zəncir tək.
Zəng vuruldu, müəllim
Sinifdən çıxdı çölə.
Dostluqdan danışırdı
Balaca dostlar hələ.
Lövhəyə belə yazdı
Tənəffüsdə Cavanşir:
"Kimin ki, dostu yoxdur,
Çətindir onun işi".

Şeir müsabiqəsinin sonunda kitabxanaçı uşaqlara Rafiq Yisifoğlunun yaradıcılığı ilə bağlı bir neçə sual verir. Sualların nümunəsini təqdim edirik:

☺ Əziz uşaqlar Rafiq Yusifoğlu haqqında nə bilirsiniz? Onu necə tanıyırsınız?

Rafiq Yusifoğlu uşaq qəlbini fəth edən, uşaq qəlbinə yol tapan gorkəmli uşaq şairidir.

☺ Rafiq Yusifoğlu hansı uşaq jurnalının redaktorudur?

Rafiq Yusifoğlu "Göyərçin" uşaq jurnalının baş redaktorudur.

☺Rafiq Yusifoğlunun redaktoru olduğu "Göyərçin" jurnalından hansı yenilikləri gözləyirsinz?

☺Biz uşaqlar, Rafiq Yusifoğludan xahiş edərdik ki, redaktoru olduğu "Göyərçin" jurnalında idmanla, səyahətlə bağlı materiallara daha çox yer versin.

☺Uşaqlar Rafiq Yusifoğlunun hansı şeirlərini tanıyırsınız?

"Uşaq", "Adam balaca olanda", "Baba məktəbə gedir", "Süd", "Adam kiçik olanda", "Cücələr və uşaqlar", "Evdə yoxdur", "Böyük", "İki çay, iki şəhər" və s.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlərdən biri də kitab müzakirəsidir. Kitab müzakirəsində Rafiq Yusifoğlunun "Ocaq yeri" adlı

kitabının müzakirəsini keçirmək olar. Tədbirə bir çox şair və yazıçıları dəvət etmək olar.  Kitabxanaçı  tədbiri açıq elan edir.

Bu torpağın övladlarıyıq. Gözəlliyi, əzəməti, yenilməzliyi, dəyanəti müqayisəyə gəlməz Odlar yurdunda ömür sürürük. Hamı işi, əməli ilə doğma torpağa övlad məhəbbətini sübut etməyə, həmişə bu amalla yaşamağa çalışır. Torpağımızı tərənnüm edən hər bir əsər, bir misra şeir belə hökmən onun adına layiq olmalıdır. Bu mənada Rafiq Yusifoğlunun "Ocaq yeri" kitabında toplanmış şeirlərində şairin üzərində addımladığı torpağa övlad məhəbbəti qırmızı xətlə keçir.

Ana torpaq, ana torpaq,
Həm dərman, həm təbibsən,
Ürəyinin istisini
Varlığıma səpibsən.
Ayağımı neçə dəfə
Oxşayıbsan, opübsən,
Tikan çıxıb qövr eləyən
Ürəyimin başından.

Rafiq Yusifoğlunun yaradıcılığında bir də diqqəti daha çox cəlb edən kitabdakı şeirlərdə oxucunu keçmişə, ötən günlərə aparmaqdır, illərə qayıdışdır, dönüşdür. Biz keçmişimizə qayıda-qayıda sabaha yol alıb gedirik. Rafiqin şeirlərinin bir qismində ürəklə, məhəbbətlə təsvir etdiyi o günlər şairin yaşıdlarına çox doğma və yaxındır, əzizdir. Rafiq Yusifoğlunun yaradıcılığı ilə bağlı keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecə oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Belə tədbirlərin keçirilməsində məqsəd Rafiq Yusifoğlunun yaradıcılığını daha geniş təbliğ etməkdir.  Ədəbi-bədii gecə iki hissədən ibarət olur. Birinci hissə çıxış və məruzələrlə başlayır. İkinci hissədə Rafiq Yusifoğlunun şeirlərindən parçalar, sozlərinə yazılmış mahnılardan istifadə olunur.  Tədbirə uşaq ədəbiyyatının təbliği ilə məşgul olan şair və yazıçıları, ədəbiyyat müəllimlərini dəvət etmək olar. **"Böyük arzuya gedən yol"** adlı ədəbi-bədii gecənin nümunəsini veririk.

**Aparıcılar səhnəyə daxil olur:**

**I Aparıcı:** Əziz tədbir iştirakçıları! Sizi F.Köçərli adına Respublika Uşaq Kitabxanasında xoş gördük! Bu gün görkəmli şair, ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, "Qızıl qələm", "Vətən", "Araz", "ilin ən yaxşı kitabı" və s. mükafatlarının laureatı, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun 65 illik yubileyini qeyd etmək üçün bu zala toplaşmışıq. Tədbiri açıq elan etmək üçün sözü  kitabxananın rəhbəri Şəhla Qənbərovaya veririk.

Hörmətli Rafiq müəllim! Sizi 65 illik yubileyiniz münasibətilə təbrik edirik!

Bildiyimiz kimi, siz ədəbi fəaliyyətə erkən yaşlarından başlamış, ilk qələm təcrübələriniz 1966-cı ildə işıq üzü görmüşdür. “Yurdum-yuvam, “Ətirli dünyam”, “Ocaq yeri”, “Qəm karvanı”, “Həsrət köçü”, “Böyük arzuya gedən yol”, “Ana dilim”, “Fişəng yağışı”, “Eşqim qarlı yollarında” və s. bədii kitablarınız nəşr edilmiş və geniş oxucu auditoriyası qazanmışdır. Siz tərcüməçi kimi də səmərəli fəaliyyət göstərmiş, onlarca dünya uşaq ədəbiyyatı nümunələrindən ibarət kitabların müəllifisiniz. Sizin coxşaxəli yaradıcılığınızın bir sahəsi də elmi-tədqiqat işidir. Filologiya elmləri doktoru, professorsunuz. “Azərbaycan poeması, axtarişlar, perspektivlər” monoqrafiyaniz, “Ədəbiyyatşünaslığın əsasları” kimi dərs vəsaitlərinizdən ali məktəb tələbələri tədris sistemində uğurla istifadə edirlər. 1985-ci ildən uşaqların sevimli jurnalı “Göyərçin”də çalışırsınız. 1997-ci ildən həmin jurnalın baş redaktorusunuz. 2005-ci ildən Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüsünüz. Hörmətli Rafiq müəllim! Sizi bir daha 65 illik yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı və yaradıcılıq uğurları arzulayırıq. Həmişə uşaqlar üçün rəngarəng mövzulu şeirlər yazan Rafiq Yusifoğlu, bu gün uşaqlar da sizi təbrik etməyə gəliblər.

**Uşaqlar səhnəyə daxil olur. “ Baba məktəbə gedir” şeirini söyləyirlər.**

**I Oxucu:**

Baba məktəbə gedir,
Uşaqlara qarışır.
Əlindəki xırdaca
Çanta ona yaraşır.
Açıbdır yaxasını,
Elə bil istilənir.
Damağındakı qəlyan
Arabir tüstülənir.
Uşaqlar arasında
Saqqallı uşaq gedir.

**II Oxucu:**

Dodağında təbəssüm,
Üzündə işıq gedir.
Məktəbin qapısından
Geriyə dönür ancaq.
Əlindəki çantanı
Alır kiçik bir uşaq.
Sag ol deyib ayrılır,
Dostlarına qoşulur.
Baba gülür, sevincdən
Bir qanadlı quş olur...

**II Aparıcı:** Şeirləriniz oz yığcamlığı, obrazlığı, poetik tutumu, yeni ifadə tərzi həmişə diqqəti cəlb edib və sizi öz dəsti xəttiniz ilə başqa

şairlərdən fərqləndirib. Siz Azərbaycan uşaq ədəbiyyatına yeni nəfəs, yeni dəst xətt gətirmisiniz. Təbiət gözəlliklərini uşaqlara sevdirmək, ağaclar, quşlar, heyvanlar haqqında poetik dillə söhbət açmaq sizin şeirlərinizin başlıca vəzifələrindən biridir. Qələmə aldığınız şeirlər, tapmacalar balaca oxucuların dünyagörüşlərinin genişlənməsinə, həm də onların estetik zövqlərinin inkişafına mühüm köməkdir.

Həyat boyu qayğılar
Çiynimizdə yük olur.
Adam kiçik olanda
Arzusu böyük olur.

Qızılı şimşəklərdən
Qamçı hörmək istəyir.
Ulduzları gül kimi
Bir-bir dərmək istəyir.

Həyatın sərt üzünü
Görüb çaşır adamlar.
Böyüdükcə, torpağa
Yaxınlaşır adamlar.

**I Aparıcı:**

Uşaq aləminə səmimiyyətlə yanaşan, ona mülayim və xeyirxah bələdçi olan Rafiq Yusifoğluna arzumuz budur ki, gələcək uşaq kitablarında açılmayan düymələr qalmasın, hamısı xoş ətri ilə bizi və balaca oxucularını sevindirsin.

Rafiq müəllim sizi bir daha 65 yaşınız münasibətilə ürəkdən təbrik edir, sizə bitib-tükənməyən yaradıcılıq uğurları, sonsuz xoşbəxtlik arzulayırıq.

( Bir neçə uşaq musiqi sədaları altında səhnəyə daxil olurlar)

**Tural:** Acgözə bax,acgözə,
Nə verdik dedi azdı!
Getdi çoxun dalınca
Yazıq meşədə azdı.

**Vüsal:** Nə soruşsan,
Qara, dinməz.
Adı qalıb
Qaradinməz.

**Səbinə:** Güldan düşdü,

Vay, sındı.
Yazıq güllər
Vaysındı.

**Aydan:** Bəsdir elədin vargəl,
Evdə hər şey var, gəl.

**Vaqif:** Elə ki, dəydi vəl vələ
Xırmana düşdü vəlvələ.

**Tapdıq:** Vecinə də almır heç
Nə covgun, nə boranı.
Bostanın bir küncündə
Mürgüləyir boranı.

**Aytac:** Bilirsən şirin dilini,
Işə sal şirin dilini.

**Fidan:** Evimdədi Gülgəzim,
Niyə çöldə gül gəzim?

**Dursun:** Dayanmışam üzü yola,
Adım qalıb üzü yola.

**Tədbirin sonunda uşaqlar " Kimindi" və "Gələn bahara kimi" şeirini söyləyirlər.**

-Ot kimindi?

-Biçənin.

-Süd kimindi?

-İçənin.

-Ad kimindi?

-Dinənin.

-At kimindi?

-Minənin.

-Köz kimindi?

-Yananın.

-Söz kimindi?

-Qananın.

**GƏLƏN BAHARA KİMİ**

Dimdiyində çöp tutub,
Havada uçurdu quş.
Bir yarpaqsız ağaca
Qonub yuva qurdu quş.
Ağac yaman kövrəldi,
Qüvvət duydu dizində.
Yaş tumurcuq-tumurcuq
Giləlndi gözündə.
Sevindi, sevincindən
Ürəyi dağa döndü.
Açıldı tumurcuqlar
Yaşıl yarpağa döndü.

O yarpaqlar yuvanı
Gözdən iraq saxladı.
Aradan xeyli keçdi,
Yuva da yarpaqladı.
Yazıq ağac az qala
Sevincindən uçurdu.
Yumurta qönçələrdən
Qanad yarpaq açıldı.
Bir azdan körpə quşlar
Qanadlanıb uçdular.

Yarpaqlar da onların
Arxasınca düşdülər.
Yuva ilə ağacın
Matı-qutu qurudu.
Dərdli-dərdli hönkürdü
Kövrək payız buludu.
Ağac dinmək istədi,
Yuva dinmək istədi.
Peşman olan yarpaqlar
Geri dönmək istədi.
Ancaq bunlar əbəsdi,
Payız küləyi əsdi.
Yarpaqların budağa,
Qanadların yuvaya
Dönən yolunu kəsdi.
O ağacla o yuva
Mat qalıbdır gör necə?!
Gələn bahara kimi
Susacaqlar beləcə…

Son

# ƏDƏBİYYAT SİYAHISI:


1. Ana dilim.-B.:Azərbaycan, 2007.-26 s.
2. Aylı cığır.-B.:Gənclik, 1992.
3. Ayrılığın qəm hasarı.-B.:Təhsil, 2002.
4. Bahar qatarı.-B.:Azərbaycan, 1999
5. Bir sevdalı ürəyim var.-B.:Çaşıoğlu, 2003.-396 s.
6. Böyük arzuya gedən yol.-B.:Azərbaycan, 2000
7. Çiçək yağışı.-B.: Çaşıoğlu, 2009.-350 s.
8. Daha uşaq deyiləm.-B.:Şirvannəşr, 2006.-200 s.
9. Dəniz səviyyəsi.-B.:Şirvannəşr, 2005.-268 s.
10. Dünya xalqlarının nağılı.-B.: Azərbaycan, 1998
11. Ətirli düymələr.-B.: Gənclik, 1983.-72 s.
12. Günlərimiz, aylarımız.-B.: Azərbaycan, 2003.-47 s.
13. Həsrət sazağı.-B.:Şirvannəşr, 2005.
14. Xatirə kəcavəsi.-B.: Elm, 1999.
15. Kitabi-Dədə Qorqud.-B.: İşıq, 1999.
16. Qızılı məktublar.-B.: ADPU nəşriyyatı, 2013.-202 s.
17. Meymunlar ölkəsi.-B.:Azərbaycan, 2006.
18. Min dovşan otaran çoban.-B.: Azərbaycan, 2005.
19. Möcüzəli xəzinə.-B.: Azərbaycan, 2000.
20. Namusu qoru.-B.: Azərbaycan, 2007.
21. Sehirli üzük.- B.: Azərbaycan, 2008.-20 s.
22. Sevdalı sabahlar.-B.: Şirvannəşr, 2007.
23. Soz çəməni.-B.: Azərbaycan, 2004.-47 s.
24. Şirin yuva.-B.:Azərbaycan, 2004.-24 s.
25. Tanrının ömür payı.-B.:Sumqayıt nəşriyyatı, 2007.-500 s.
26. Uşaq ədəbiyyatı.-B.: Şirvannəşr, 2006.-268 s.
27. Yollar.-B.:Azərbaycan, 2006.-28 s.
28. Zamanın qatarı.-B.: Azərbaycan, 2005.-20 s.